**Hörmətli Vahid müəllim,**

Sızi ve kollektivinizi Azərbaycan Respublikasının iqtisadi sistemində mühüm yer tutan, maliyyə nəzarətinin, hesabatlılığın və şəffaflığın təmin olunmasında əvəzsiz rol oynayan Auditorlar Palatasının yaradılmasının 30 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Ümummilli Lider Heydər Əliyev tərəfindən imzalanmış "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təsis edilən Auditorlar Palatası ötən 30 il ərzində ölkəmizdə milli audit sisteminin formalaşdırılması və inkişaf etdirilməsi istiqamətində mühüm nailiyyətlərə imza atmışdır.

Ulu Öndərin əsasını qoyduğu dövlət quruculuğu siyasəti çərçivəsində nəzarət mexanizmlərinin təkmilləşdirilməsi və bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılması daim prioritet məsələlərdən olmuşdur. Bu siyasət bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir, iqtisadiyyatın dayanıqlı inkişafı, beynəlxalq standartların tətbiqi, rəqəmsallaşma, şəffaflığın və məsuliyyətin artırılması istiqamətində ardıcıl islahatlar həyata keçirilir.

Ötən illər ərzində Auditorlar Palatası tərəfindən audit sisteminin yenidən qurulması, Beynəlxalq Audit Standartlarının tətbiqi, nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər görülmüşdür. Çoxsaylı əməkdaşlıq sazişlərinin imzalanması, beynəlxalq təşkilatlara tamhüquqlu üzvlük ölkəmizdə audit xidmətinin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə töhfə vermişdir.

Eyni zamanda, dövlət proqramlari və stratefi yol xəritələrindən irəli gələn vəzifələrin icrası, maliyyə və vergi intizamının möhkəmləndinlməsi, antikorrupsiya mədəniyyətinin formalaşdırılması, açıq hökumət prinsiplərinin təşviqi istiqamətində Auditorlar Palatasının fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir.

Sizin rəhbərliyinizlə Auditorlar Palatası 30 il ərzində zəngin təcrübə toplamış, milli audit sisteminin institusional əsaslarını möhkəmləndirmiş, rəqəmsal iqtisadiyyatın çağırışlarına uyğun yeni yanaşmaların tətbiqinə başlamış və müstəqil audit institutunun davamlı inkişafını təmin etmişdir. Bu uğurlar ölkəmizdə iqtisadi şəffaflığın daha da artırılmasına və dayanıqlı inkişafın təmin olunmasına mühüm töhfədir.

**Hörmətli Vahid müəllim,**

Sizi və əməkdaşlarınızı bir daha Azərbaycan Respublikasının Auditorlar Palatasının yaradılmasının 30 illik yubileyi münasibətilə şəxsən öz adımdan, eləcə də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin kollektivi adından ürəkdən təbrik edir, ölkəmizin iqtisadi qüdrətinin və potensialının artması naminə səmərəli fəaliyyətinizdə uğurlar arzulayıram.

**Ailə, Qadın və Uşaq Problemləri**
**üzrə Dövlət Komitəsinin sədri** **Bahar Muradova**